**“2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı”nın həyata keçirilməsi üzrə Tədbirlər Planı (2011-2015-ci illər)”nın Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən 2011-2015-ci illər ərzində icra vəziyyəti barədə**

# MƏLUMAT

| № | Tədbirlərin adı | İcraçı təşkilatlar | İcra müddəti (illər üzrə) | İcra vəziyyəti | Tədbirin icrasının qiymətləndirilməsi | | | Tədbirin qismən icra edilməsi və ya icra edilməməsinin səbəbləri |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Tam icra olunub | Qismən icra olunub | İcra olunmayıb | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| 1 | QHT-lərin fəaliyyətini tənzimləyən qanunvericilik bazasının təkmilləşdirilməsi | Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası | 2011-2015-ci illər | QHT-lərin fəaliyyətini tənzimləyən qanunvericilik bazasının təkmilləşdirilməsi ilə bağlı hesabat dövrü ərzində bir sıra vacib normativ hüquqi aktlar qəbul edilmişdir.<br>“Qeyri-hökumət təşkilatları haqqında” Azərbaycan Respublikası qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı dəyişikliklərin edilməsi haqqında 2013-cü il 15 fevral tarixli 561 IVQD nömrəli, 2013-cü il 17 dekabr tarixli 849 IVQD nömrəli və 2014-cü il 17 oktyabr tarixli 1082 IVQD nömrəli qanunlar qəbul edilmişdir.<br>Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının təşəbbüsü və iştirakçılığı ilə hazırlanmış “İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikasının Qanunu 22 noyabr 2013-cü il tarixdə (N 816-İVQ) qəbul edilmişdir. Bu qanunun icrası ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli 171 nömrəli Qərarı ilə “İctimai şuranın vətəndaş | Tam icra olunub | | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə” və həmin tarixli 172 nömrəli Qərarı ilə “Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin keçirilməsi Qaydası” təsdiq edilmişdir.<br>Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının (bundan sonra-Şura) fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı Şuranın Əsasnaməsinə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 fevral tarixli 594 nömrəli, 2012-ci il 23 may tarixli 636 nömrəli, o cümlədən “Qeyri-hökumət təşkilatlarına elektron xidmətlərin göstərilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” 2013-cü il 20 noyabr tarixli 26 nömrəli, “Dövlət orqanları tərəfindən qeyri-hökumət təşkilatlarına qrant verilməsinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə razılaşdırılması haqqında” 2015-ci il 21 oktyabr tarixli 652 nömrəli və “ Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən, fəaliyyət sahələrinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə qrant verə bilən qurumların siyahısının təsdiq edilməsi haqqında” 2015-ci il 21 oktyabr tarixli 654 nömrəli fərmanları təsdiq olunmuşdur. O da qeyd olunmalıdır ki, “Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının fəaliyyətinin dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında” və “Xarici qeyri-hökumət təşkilatlarının Azərbaycanla bağlı layihələrinin dəstəklənməsi sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentin müvafiq olaraq 2013-cü il 01 may tarixli 2883 nömrəli və 2013-cü il 19 iyun tarixli 564 | | | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | nömrəli sərəncamları qəbul edilmişdir.<br>"Qeyri-hökumət təşkilatının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin qəbul etdiyi ianələrin məbləği və ianəni vermiş şəxslər barədə məlumatların təqdim edilməsi Qaydası", həmçinin "Qeyri-hökumət təşkilatları, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəlikləri tərəfindən xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilələrin qeydiyyata alınması Qaydası" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq olaraq 2015-ci il 21 oktyabr tarixli 336 nömrəli və 2015-ci il 21 oktyabr tarixli 337 nömrəli qərarları ilə təsdiq edilmişdir.<br>O da qeyd olunmalıdır ki, hesabat dövrü ərzində Şura QHT-lərin fəaliyyətini tənzimləyən qanunlara edilən əlavə və dəyişikliklər barədə Bakı şəhərində və eləcə də regionlarda məlumatlandırma sessiyaları təşkil etmişdir. Qanunvericilikdə edilən əlavə və dəyişikliklərin praktik həlli istiqamətində QHT-lərə yardım etmək məqsədilə Şurada "Hüquq və monitorinq komissiyası" yaradılmışdır. Komissiya QHT-lərin narahatlığına səbəb olan məsələlərə aydınlıq gətirmək məqsədilə QHT-lərdən, Ədliyyə Nazirliyinin müvafiq struktur bölmələrindən, Mərkəzi Bankın nümayəndəsindən ibarət tərkibdə bir sıra iclaslar təşkil edərək bu narahatlıqların aradan qaldırılması istiqamətində fəaliyyət göstərmişdir. | | | | |
| 2 | QHT-lərə dövlət büdcəsindən subsidiyanın ayrılması mexanizminin təkmilləşdirilm | Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi | 2011-2015-ci illər | Hesabat dövrü ərzində Şura tərəfindən QHT-lərə məlumat, konsultativ, metodiki, təşkilati-texniki dəstəklə yanaşı, müxtəlif istiqamətlərdə ictimai əhəmiyyət kəsb edən mövzularda proqram layihələrin icrası məqsədilə maliyyə yardımı da göstərilmişdir.<br>2011-ci ildə QHT layihələrinin maliyyələşdirilməsi ilə bağlı elan edilmiş müsabiqələr üzrə 338 QHT layihəsinə | Tam icra olunub | | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | əsi ilə bağlı təkliflərin hazırlanması | Şurası | | ümumilikdə 2.045.416 manat vəsait ayrılmışdır.<br>2012-ci ildə QHT layihələrinin maliyyələşdirilməsi ilə bağlı elan edilmiş müsabiqələr üzrə 347 QHT layihəsinə ümumilikdə 2.031.000 manat vəsait ayrılmışdır.<br>2013-cü ildə QHT layihələrinin maliyyələşdirilməsi ilə bağlı elan edilmiş müsabiqələr üzrə 506 QHT layihəsinə ümumilikdə 5.527.492 manat vəsait ayrılmışdır.<br>2014-cü ildə QHT layihələrinin maliyyələşdirilməsi ilə bağlı elan edilmiş müsabiqələr üzrə 403 QHT layihəsinə ümumilikdə 3.934.168 manat vəsait ayrılmışdır.<br>2015-ci ildə QHT layihələrinin maliyyələşdirilməsi ilə bağlı elan edilmiş müsabiqələr üzrə 520 QHT layihəsinə ümumilikdə 5.255.343 manat vəsait ayrılmışdır.<br>O da qeyd olunmaldır ki, “Dövlət orqanları tərəfindən qeyri-hökumət təşkilatlarına qrant verilməsinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə razılaşdırılması haqqında” və “Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən, fəaliyyət sahələrinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə qrant verə bilən qurumların siyahısının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli müvafiq olaraq 652 və 654 nömrəli fərmanları QHT sektorunun fəaliyyətinin maliyyə təminatı baxımdan xüsusi əhəmiyyət kəsb edir. Bu fərmanların icrası ilə bağlı 2016-cı ildən etibarən 8 dövlət orqanının hər biri, fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə razılaşdırılmaqla ictimai əhəmiyyət kəsb edən müxtəlif proqram layihələrinin icrası il bağlı QHT-lərə maliyyə yardımı göstərəcəklər. Bu da cəmiyyət həyatının müxtəlif sahələrində QHT-lərin aktiv fəaliyyəti üçün | | | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | iqtisadi cəhətdən əlavə təminat yaradacaqdır. | | | | |
| 3 | QHT-lərin müsbət təcrübəsinin yayılması | Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası | 2011-2015-ci illər | Ötən illərdə QHT-lərin fəaliyyəti haqqında bir sıra televiziya verilişləri hazırlanmışdır. Şuranın və ayrı-ayrı QHT-lərin maliyyələşən layihələr çərçivəsində həyata keçirdiyi tədbirlər ölkənin televiziya kanalları tərəfindən hər il işıqlandırılmışdır.<br>Şura tərəfindən QHT-lərin müsbət təcrübəsinin yayılması və təbliği istiqamətində Bakı şəhəri ilə yanaşı Respublikanın bir çox regionlarında ictimai müzakirələr təşkil olunmuşdur.<br>2011-ci il ölkəmizdə “Turizm ili” elan edildiyindən bu sahəni əhatə edən təşəbbüslərə dəstək göstərilməsi QHT fəaliyyənin mühüm istiqamətini təşkil etmişdir. Eləcə də, 2011-ci ildə QHT-lər tərəfindən həyata keçirilən layihələr “Şəffaflığın artırılması və korrupsiya qarşı mübarizə üzrə Milli Strategiya” üzrə əhali arasında maarifləndirmə tədbirlərini, sahibkarların korrupsiyaya qarşı mübarizə sahəsində məlumatlandırılması və sair vacib məsələləri əks etdirmişdir.<br>2012-ci il ölkəmizdə bütün dünyanın maraqla izlədiyi “Avroviziya-2012” mahnı müsabiqəsi böyük uğurla keçmişdir. Müstəqil Azərbaycanın son 20 ildə əldə etdiyi nailiyyətlər, ölkəmizin turizm potensialı Bakıya gəlmiş minlərlə qonağa layiqincə təqdim edilmişdir. Bu təqdimatda ölkə QHT-lərinin bir çoxu Şuranın dəstəyilə iştirak edərək qonaqlara müxtəlif bələdçi, tərcüməçi xidmətləri göstərmişlər. Onlar ölkəmiz, mədəniyyətimiz və tarixi irsimizlə bağlı bir sıra vacib məlumatları qonaqların diqqətinə çatdırmağa nail olmuşlar.<br>2013-cü ildə Şuranın elan etdiyi maliyyə yardımı müsabiqələri də əvvəlki müsabiqələrdən həm mövzu etibarı ilə, həm də onların icra metodologiyası ilə seçilmişdir. Əsasən kütləvi təbliğat formalarını nəzərdə tutan maarifləndirmə tədbirləri, xüsusilə əhalinin | Tam icra olunub | | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | gündəlik həyatında aktuallıq kəsb edən, eləcə də yeni qəbul edilmiş qanunların təbliği müsabiqənin əsas qayəsini təşkil etmişdir. Bu müsabiqələrdə günümüzün ən vacib problemlərindən olan ərzaq təhlükəsizliyi məsələləri, həmçinin kənd təsərrüfatında ekoloji təmiz-orqanik məhsulların yetişdirilməsi, genetik modifikasiya olunmuş məhsullara qarşı mübarizə tədbirləri də QHT-lər tərəfindən prioritet layihə fəaliyyəti istiqamətləri kimi seçilmişdir. QHT ekspertləri olan peşəkar mütəxxəssislər əhali arasında kütləvi təbliğat tədbirləri keçirmiş, maarifləndirmə işi aparmışlar. Hazırlanmış sosial çarxlar elektron KİV, internet resursları və sosial şəbəkələr vasitəsilə ictimaiyyətin diqqətinə çatdırılmışdır. Bu mövzuların daha geniş təbliğat spektrini təmin etmək üçün Şuranın təşəbbüsü ilə “Xəzər” TV tərəfdaş qismində layihələrin icrasına cəlb edilmişdir.<br>17 iyun 2014-cü il tarixdə Şura tərəfindən Şamaxı rayonunda QHT-lərin müsbət təcrübəsinin yayılması, inkişaf etdirilməsi və eyni zamanda qeyri-hökumət təşkilatlarının fəaliyyətini tənzimləyən qanunlara edilən son əlavə və dəyişikliklərlə bağlı məlumatlandırma tədbiri keçirilmişdir.<br>2014-cü ildə Şura Xəzər televiziyası ilə “Birgə cəmiyyət” adlı maarifləndirici veriliş hazırlanması barədə razılıq əldə etmişdir. Proqram hər həftənin beşinci günü, saat 23:00-da yayımlanmışdır. Verilişin hazırlanmasında əsas məqsəd Şuranın dəstəklədiyi layihələrdə toxunulan problemlərin hərtərəfli işıqlandırılması və bunlarla bağlı cəmiyyətin maarifləndirilməsi olmuşdur. Eyni zamanda bu veriliş vasitəsi ilə vətəndaşların hüquq və mənafelərinin qorunması istiqamətində QHT-lərin həyata keçirdiyi layihələr haqqında vətəndaşlar geniş şəkildə məlumatlandırılmışdır. Ümumilikdə proqramda | | | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | vətəndaşları düşündürən, ictimai əhəmiyyət kəsb edən müxtəlif mövzular ekspertlərin iştirakı ilə müzakirəyə çıxarılmışdır.<br>2014-cü ildə Şuranın bütün QHT layihələrini yalnız elektron formada - www.e-qht.az resursu vasitəsilə qəbul etməsini qeyd etmək lazımdır. Bu, Şura-QHT münasibətlərində şəffaflıq amilinin daha da artırılmasına xidmət etməkdən əlavə, bir vacib göstəricini də önə çəkir: 7 ildə Azərbaycan dövlətinin yerli QHT-lərə dəstəyi nəticəsində onların təşkilati-texniki imkanları, bilik və bacarıqları xeyli yüksəlmiş və bununla onlar maliyyə müsabiqələrinə internet resurları üzərindən qatılmaq imkanı əldə etmişdir.<br>Dövlətimizin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə yönəlik siyasətinə ictimai dəstəyin təmin edilməsi ən aktual mövzulardan biri kimi 2014-cü ildə QHT gündəmində başlıca yer tutmuşdur. Bununla bağlı QHT-lər Avropanın müxtəlif şəhərlərindəki ali təhsil müəssisələrində Qarabağ guşələri yaratmış, münaqişə ilə bağlı Azərbaycanın haqlı mövqeyini bir daha nümayiş etdirmiş və problemin həllinə mane olan cəhətləri açıqlamışlar.<br>QHT həyatına onlayn informasiya dəstəyinin verilməsi məqsədilə Şuranın hər gün yenilənən www.qhtxeber.az saytı da 2015-ci il ərzində öz fəaliyyətini davam etdirmişdir. Saytda ölkənin ictimai sektoruna aid praktiki və nəzəri məsələlər işıqlandırılmışdır. Saytda QHT-lərin fəaliyyətini əks etdirən bütün növ xəbərlər, elanlar, hesabatlar yeni dizaynda yerləşdirilir, QHT qanunvericiliyi, donor fəaliyyəti, QHT-lərin koalisiya və beynəlxalq əməkdaşlığı haqqında materiallar ictimai müzakirəyə çıxarılmışdır. 2015-ci il ərzində Şuranın dəstəyi ilə həyata keçirilən layihələrin icrası ilə bağlı QHT-lərdən daxil olan 7000-nə | | | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | yaxın press-reliz www.qhtxeber.az saytı vasitəsilə ictimaiyyətə çatdırılmışdır. O cümlədən bu müddət ərzində Şura tərəfindən həyata keçirilən müxtəlif tədbirlərlə bağlı 50-dən çox press-reliz sayt vasitəsilə işıqlandırılmışdır.<br>Şuranın, eləcə də ölkə QHT-lərinin fəaliyyəti barədə ictimaiyyəti məlumatlandırmaq, qeyri-hökumət təşkilatlarının inkişaf dinamikasını, yerinə yetirilən layihələrin icra vəziyyətini və nəticələrini işıqlandırmaq məqsədilə Şuranın aylıq “Vətəndaş cəmiyyəti” jurnalının yeni tərtibatla nəşri uğurla davam etdirilmişdir. 2011-2015-ci illər ərzində jurnalın 60 nömrəsi işıq üzü görmüşdür. Bu dövr ərzində nəşr olunan dövri jurnallarda qeyri-hökumət təşkilatlarının fəaliyyəti, həyata keçirdiyi layihə və proqramlar haqqında müfəssəl informasiya, məqalə və müsahibələr verilmiş, bütövlükdə ölkə QHT-lərinin fəaliyyəti izlənmiş və ictimai fəaliyyətlə bağlı digər mövzular işıqlandırılmışdır.<br>Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Azərbaycanın haqq səsinin dünyaya çatdırılması və Azərbaycan həqiqətlərinin ölkə xaricində təbliğ edilməsi prioritet maliyyələşmə istiqamətləri sırasında qalmaqdadır. QHT-lər ABŞ-da, Avropanın müxtəlif guşələrində ölkəmizlə bağlı təbliğat işinə ciddi töhfələr verməyə nail olmuşlar. Avropa dillərində yeni informasiya saytları yaradılmış, kitab və broşürlər nəşr edilərək yayılmış, konfranslar və sərgilər keçirilmişdir.<br>2015-ci ilin 1-ci maliyyə yardımı müsabiqəsi çərçivəsində maliyyələşən layihələrin həyata keçirilməsinin effektivliyinin artırılması məqsədilə layihə rəhbərləri və mühasibləri üçün layihələrin idarə olunması və hesabatların təqdim edilməsi mövzularında məlumatlandırma sessiyaları keçirmişdir.<br>31 mart 2015-ci ildə Şuranın 1-ci maliyyə yardımı | | | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | müsabiqəsinin qalibi olan QHT sədrlərinin iştirakı ilə məlumatlandırma sessiyası keçirilib. Sessiyanın məqsədi layihələrin icrasının səmərəliliyinin artırılması üçün QHT rəhbərlərinə müvafiq təlimatların çatdırılmasından ibarət olmuşdur.<br>18 mart 2015-ci ildə Şura ilə Türkiyə Respublikası Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) Bakı Proqram Koordinatorluğu ilə əməkdaşlıq çərçivəsində "Bakı QHT-lərinin Resurs və Təlim Mərkəzi"nin açılış mərasimi keçirilib. Mərkəzin yaradılması QHT-lərin bu sahədə zəruri bilik və bacarıqlarının artırılmasında əlverişli imkanlar yaradcaqdır.<br>Bu illər ərzində QHT-lər tərəfindən həyata keçirilən layihələr cəmiyyətdə demokratik proseslərin daha da dərinləşməsi, qaçqın və məcburi köçkünlərin, əhalinin az təminatlı təbəqəsinin sosial ehtiyaclarının ödənilməsi, təhsil, səhiyyə, mədəniyyət məsələlərilə bağlı problemlərin həlli və ictimailəşdirilməsi üçün faydalı olmuşdur. | | | | |
| 4 | Region QHT-lərinin inkişaf etdirilməsi | Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası | 2011-2015-ci illər | «Mühasibat uçotu haqqında» Azərbaycan Respublikası Qanununun 13.2-ci maddəsinə uyğun olaraq, qeyri-hökumət təşkilatları 2010-cu ildən etibarən Qeyri-Hökumət Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun tərtib edilmiş formada illik maliyyə hesabatı hazırlamalı və aprel ayının 1-dək Maliyyə Nazirliyinə təqdim etməlidirlər. Ötən ildə olduğu kimi, 2012-ci ildə də Şura göstərilən qanunun icrasına, habelə region QHT-lərinin bu sahədə üzləşdiyi çətinliklərin aradan qaldırılmasına kömək məqsədilə hesabatların tərtibi və təqdim edilməsi işində region QHT-lərinə yardım məqsədilə məsləhət saatları və seminarlar təşkil etmişdir. 13 iyul və 14 dekabr 2012-ci il tarixlərində müvafiq olaraq maliyyə yardımı müsabiqəsilə bağlı və | Tam icra olunub | | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | 2013-cü ildə QHT layihələrinin maliyyələşdirilməsi üçün elan etdiyi müsabiqə ilə bağlı Şura tərəfindən məlumatlandırma sessiyaları keçirilmişdir. Sessiyalarda QHT nümayəndələrinə maliyyə yardımı müsabiqəsinin istiqamətləri, mövzuları, şərtləri və zəruri sənədləri haqqında ətraflı məlumat verilmişdir. Ümumilikdə 2012-ci il ərzində 250-dən çox QHT-yə bu sahədə xidmət göstərilib.<br>19 iyun 2013-cü il tarixdə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökkumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası və Gəncə Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Gəncədə “Regionlarda vətəndaş cəmiyyətinin möhkəmləndirilməsində QHT-Hökumət əməkdaşlığının rolu” mövzusunda regional konfrans keçirilmişdir.<br>2013-cü ilin noyabr ayında Ağdaş, Tovuz, Qusar, Astara, Goranboy və digər rayonlarda yerli QHT və ictimaiyyət nümayəndələrinin iştirakı ilə QHT-lərin həyata keçirdiyi layihələr barədə ictimaiyyəti məlumatlandırmaq məqsədilə bir sıra tədbirlər keçirilmişdir.<br>Bundan başqa Şura tərəfindən 2013-cü ilin maliyyə yardımı müsabiqələri çərçivəsində aşağıda qeyd olunan region QHT-lərinin layihələri dəstəklənərək bir çox təlim, tədbir, dəyirmi masa və konfranslar keçirilmişdir:<br>• Gəncliyə Dəstək İctimai Birliyi- Zərdab rayonunda Heydə Əliyev adına Parkda kitab sərgisi;<br>• Balans İqtisadi Maarifləndirmə İctimai Birliyi- Şimal-Qərb regionunda sahibkarlıq fəaliyyəti ilə bağlı təlimlər;<br>• Sağlam Mühit Gənclərin İnkişafına Kömək İctimai Birliyi- Sahibkarlıq fəaliyyəti ilə bağlı təlimlər;<br>• Azərbaycan Respublikası “Gülsam” Əlillərin Reabilitasiyası İctimai Birliyi- Ağsu rayonunda | | | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | məhdud hərəkətli insanlar üçün dərzilik sənəti üzrə sürətləndirilmiş ixtisas kursları;<br>• Gəncə Regional Sosial-İqtisadi Araşdırmalar Mərkəzi İctimai Birliyi-Tovuz rayonunda Sahibkarlıq fəaliyyəti ilə bağlı təlimlər;<br>• Gəncə Avro-Atlantik Məlumat Mərkəzi İctimai Birliyi-“Azərbaycanın Avro-Atlantik inteqrasiya proseslərinə ictimaiyyətin dəstəyinin gücləndirilməsi” layihəsi çərçivəsində “NATO-Azərbaycan əlaqələri: Qazanılmış təcrübə və yeni imkanlar” mövzusunda Gəncə Dövlət Universitetində dəyirmi masa;<br>• Mingəçevir Valideynlər Assosiasiyası İctimai Birliyi-Ucar, Bərdə, Mingəçevir rayonlarında insan alverinə qarşı mübarizə mövzusunda təlimlər;<br>• Təmas Regional İnkişaf İctimai Birliyi-Göygöl rayonunda insan alverinə qarşı maarifləndirmə təlimləri;<br>• Araz Heyvandarlıq Südçülük İctimai Birliyi-İmişli və Biləsuvar rayonlarında sahibkarlıq fəaliyyəti ilə bağlı təlimlər;<br>• Uşaq Fondu Gəncə şəhər Təşkilatı- Qüsurlu uşaqlara psixoloji yardım tədbirləri;<br>• İnkişaf 2006 Sosial Dəstək İctimai Birliyi-HİV, QİÇS-lə bağlı maarifləndirmə tədbirləri.<br>Şura tərəfindən 2014-cü ilin maliyyə yardımı müsabiqələri çərçivəsində region QHT-lərinin layihələri dəstəklənərək bir çox təlim, tədbir, dəyirmi masa və konfranslar keçirilmişdir.<br>Şura Katibliyinin əməkdaşları 2014-cü ildə Milli Mühasibat Uçotu Standartlarına uyğun maliyyə hesabatlarının hazırlanması işində 400 QHT-yə xidmət göstərmişlər. Eləcə də əmək müqavilələrinin elektron | | | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | qeydiyyatı ilə bağlı təlimlər keçirilmişdir. Bu təşkilatların 120-si region QHT-ləridir. Katiblik əməkdaşları Şuranın ofisində və Azərbaycan Milli QHT Forumunun Quba, Qəbələ, Şirvan, Mingəçevir və Şəmkir şəhərlərinə Regional QHT-lərin Resurs və Təlim Mərkəzlərində QHT-lər üçün konsultativ və praktik xidmətlər təşkil etmişlər. Eyni tədbirlərin regionlarda keçirilməsi də 2015-ci ildə də davam etmişdir.<br>Şuranın 2011-2015-ci illər ərzində elan etdiyi maliyyə yardımı müsabiqələrinin istiqamətləri, şərtləri, qaydaları və digər sahələrdə region QHT-lərini məlumatlandırmaq, onları maraqlandıran məsələlərə aydınlıq gətirmək məqsədilə davamlı olaraq regionlarda konsultativ sessiyalar təşkil edilmişdir. | | | | |

“15” yanvar 2016-cı il